# Proqram Mühəndisliyi və İnformasiyanın Siyasi-Hüquqi və Etik Aspekti

Rəna Mirzəzadə[1], Leyla Qasımzadə[2]
[1]AMEA Fəlsəfə İnstitutu, Bakı, Azərbaycan
[2]AMEA İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
*mirrena54@yahoo.com*

*Xülasə–* **Məqalədə proqram mühəndisliyi və proqram təminatı kontekstində informasiyanın siyasi-hüquqi və etik aspektləri təhlil olunur. Təhlildə müasir sosial şəbəkə, İKT, informasiya və xəbər alma metodları, fərdi təsir vasitələri şərh edilir. Məqalədə bu sahədə Azərbaycan qanunverciliyinə istinad olunur, hüquqi tənzimləmə mexanizmi göstərilir. Həmçinin müvafiq sahədə hüquq pozuntuları, informasiyanın mənfi və müsbət təsirləri və s. bu kimi problemlərə diqqət yönəldilir.**

***Açar sözlər– proqram mühəndisliyi, proqram təminatı, etik qaydalar, NETİKET***

Qloballaşan dünyada İnternetsiz həyat, informasiyasız isə zamanımız yoxdur. Bu mənada ölkə Prezidenti İlham Əliyev vurğulayır ki: "Azərbaycan o ölkələrdəndir ki, burada İnternet azaddır, ona heç bir məhdudiyyət yoxdur. Azərbaycanda azad internet fəaliyyət göstərir" [1]. İnternetdə istənilən xəbəri veb üzərində qarşılıqlı informasiya paylaşmasına əsaslanan yeni İKT vasitələrindən alırıq. Bu kontekstdə İKT-nin yaşam tərzimizə təsirləri (fərdi, siyasi, hüquqi, sosial, etik və s.) kimi problemlərə nəzər yetirək. İlk öncə mövzunun siyasi-hüquqi aspektini açmaq üçün Azəbaycan qanunvericiliyinə müraciət edək. Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsi "Məlumat azadlığı" adlanır və onun İ bəndində yazılıb: "Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır." [2]. Bu baxımdan, hər cür məlumatı almaq üçün İKT yeni təsir vasitəsi kimi həyatımızdadır.

Bəs Proqram mühəndisliyi nədir? – Bu kompüter üzrə elmlərin müxtəlif sahələrini özündə birləşdirən və kompüter sistemlərini yaradan mühəndislik sahəsidir. Kompüter-proqram mühəndislərinin adətən elektron mühəndislik, proqram təminatının dizaynı, proqram təminatı ilə aparat təminatının inteqrasiyası kimi sahələrdə bilik və bacarıqları olur [3]. Bəs proqram təminatı mühəndisliyi nədir? – Bu proqram təminatının dizaynı, yaradılması, idarə edilməsi ilə məşğul olan sahədir [4]. Proqram təminatının yaradılma mərhələləri belədir:

1. planlaşdırma;
2. analiz;
3. dizayn;
4. proqramlaşdırma;
5. test.

Məhz proqram təminatının 2-ci, yəni analiz mərhələsi istiqamətində mövzunun etik və siyasi-hüquqi aspektlərinə nəzər salaq. Akademik Rasim Əliquliyevin məntiqi ilə desək: "Müasir dünyada intellektual mülkiyyətin qorunmasının 3 əsas metodu mövcuddur: müəllif hüququ, patent və kommersiya sirri. Həm də intellektual mülkiyyət hüququnun digər qorunma üsulları da tətbiq edilir: mənəvi etik normalar; - inzibati tədbirlər (konfidensiallıq rejiminin təşkili, təhlükəsizlik xidmətinin yaradılması, heyətin öyrədilməsi və təlimatlandırılması)" [5].

İnformasiya əsrində dünya günbəgün, saatbasaat virtuallaşır, İnternetsiz dünya isə sanki bir "nəsə çatışmayan" çarəsizlik yaradır. Sanki virtual dünyasız yaşamaq mümkün deyildir. Bu prosesin əsasını isə kompüter və bu çərçivədə informasiyalaşma təşkil edir. Kompüterin əsas funksiyası isə informasiyanı emal etməkdir. Proqramlar isə kompüterin proqram təminatını təşkil edir. Kompüterin işi proqram əsasında idarəetmə prinsipinə əsaslanır. Bu halda hər bir kompüter öncədən hazırlanan proqrama görə əməliyyatları yerinə yetirir.

Həyatımız, informasiya axını və bu aspektdə, proqram mühəndisinin səhər erkəndən tam gecə yarıyadək yetirəcəyi informasiyadan da asılıdır. İlk öncə havanı öyrənmək üçün Xəbərə diqqət yönəlir. Bu Xəbər bəzən yanlış da olur. Və günahkar Xəbərin verildiyi Hava Bürosu yox, Xəbəri yayan proqram olur. Bu isə təbii ki, fərdi təsir yaradır. Bu mənadabəs fərdi təsir nədir? Fərdi təsirin etik tərəfi nədir? Ayrı-ayrı fərdlər kimi onlayn olaraq informasiyaları saytlardan (keçənlərdə adətən qəzetlərdən, radio, tv-dən və s.), ya da *WhatsApp* dostlarımızdan alırıq. Bu yöndə ads da əlyetərli olub, çünki telefondan (smartfon) daha qənaətlidir. Belə ki, *WhatsApp* məcazi dildə "kontur-pul" yemir. Bu halda *Skype* vasitəsi ilə hal-əhval tutmaq, iş planlarını müzakirə etmək əlverişlidir. Bütün bu yeni texnoloji məkan, yeni xəbər-informasiya vakuumu fərdi təsirdir və yeni media adlanır.

Deməк bu yeni media, yeni etik qaydalar və yeni proqramlaşdırılan təsir vasitələridir. Burada artıq jurnalistlərdən çox proqram mühəndisinin, proqramlaşdırıcının rolu getdikcə artır. Birincisi, istənilən xəbəri tez almaq forması dəyişib. İkincisi, bu zaman tək xəbər deyil, həm də müxtəlif təbəqələrdən "dost" məfhumu adı ilə aldığımız doğru və yanlış informasiyalarla beynimiz yüklənir. Üçüncüsü, tanımadığımız, canlı ünsiyyətdə olmadığımız insanlarla fərdi təsir yaranır, kommunikasiya formasında qarşılıqlı münasibət yaranır. Dördüncüsü, burada bir etik məqam da çoxməlumatlılıq, fərdin sanki "çox xəbərdar"

DOI: 10.25045/NCSoftEng.2017.35

olması bir növ onun genişətraflı biliklərə malikliyini təcdiqləyir və ona rəğbət hissi yaradır.

Demək veb üzərindən alınan məlumatlar da yeni etik təsir yaradır. Beşincisi, məlumat ötürənlərin fiziki görünüşü, cinsi, milləti , irqi, rəngi, mənsubiyyəti qəti maraq yaratmır, çünki burada əsas proqramçı, internet və informasiya ötürən önəm daşıyır. Bu mərhələdə ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın da “Kor və zəif görən insanların İKT-yə çıxışının təmin edilməsi layihəsi” neçə-neçə insanı qaranlıqdan işıqlığa çıxartdı. Bu da İKT-nin hər cür insana təsirinin müsbət tərəfidir.

Bəs İKT-nin mənfi təsiri nədir? Burada artıq İKT kitaba qarşıdır. Yəni İKT-nin, İnternetin daha sürəkli olması, kitabı isə hələ sifariş etmək kimi bir “toqquşma” yaradır və kitab oxumaq vərdişi, artıq Virtual məkana keçir. Digər bir məsələ isə müəyyən bir şəxslə üzbəüz ünsiyyətdə olan birinə qəfil zəng və ya mesaj gəlirsə və onu unudub tez mesajı oxuyursa, bu da bir etik normalardan uzaq haldır. Üçüncü hal isə, hər şeyi ekranda görmək beyni-gözü yorur və alınan məlumat beyində yazılmır. Bu da biliyin tez silinməsidir. Bunlar heç də internetin, proqram mühəndislərinin işinin qüsuru deyil,İKT-nin müsbət roluna da xələl gətirmir, müəyyən iradlardır. Burada isə nə etməli sualının cavabı belədir: internetdən də rejimli, sistemli istifadə vacibdir.

Bəs İKT-də hüquqi təsir nədir? Vaxtilə KİV(yəni qəzet, jurnal, faks, radio, TV, teleqram, ratsiya və s.) vasitəsi ilə bizə verilən, çatan xəbərlər var idi, bu isə təktərəfli kommunikasiya idi. Hazırda isə xəbər portalı və ya saytı, eləcə də telefon, planşet, kompüter, bir sözlə internetə bağlı İKT vasitələri qarşılıqlı həm fərdi, həm də çoxtərəfli vasitə yaradır. İnformasiya birincisi, istehsal edilir, ikincisi isə istehlak olunur. Bu zaman bilgi-xəbər-informasiya ən böyük “idarəedən qüvvə” sayılır. Deməli internet siyasi təsir qüvvəsidir. Və yaxud buna “idarəedici güc” də deyilə bilər. Məhz siyasi-hüquqi nöqteyi nəzərdən də əsas mübarizə informasiyanı bilmək istəyənlə onu vermək istəməyən arasında olan “mübahisədir”. Xəbər – bilgi üstündə gedən “mübahisədə” hüquq iki istiqamətdə istifadəolunabilərvəyayaxudolunur. Belə ki, burada hüquqi təsir qoruyucu və xəbər “silahı” kimi istifadə edilə bilər.

Keçmiş sovet dövründə KİV-də hər yazı, hər xəbər xüsusi tənzimlənir, xüsus siyasi - hüquqi prosedurdan keçir, senzura deyilən, bir müasir anlamda yanaşsaq, “lisenziya” var idi. Senzura isə elə nəzarət-hüquqi mexanizm metodudur. Müasir lisenziya da nəzarətdir. İnternetdə isə belə senzura yoxdur, senzuraya da ehtiyac yaranmır. Hər fərd istədiyi xəbəri hazırlayıb, istədiyi zaman və istədiyi məkanda, *Facebook*-da, sosial şəbəkələrdə yaya bilir. Məhz günün aktual siyasi-hüquqi proseduru, aktual məsələsi də bu kimi “Hüquqsuz” Virtual Məkanda pozulan hüquqlardır. Yuxarıda Azərbaycan Respublikasının Konstitusiyasına müraciət etdik ki, hər kəsin məlumat almaq hüququ var. Lakin həm də Azərbaycan Respublikasının Konstitusiyasının məhz **“**Məlumat azadlığı” adlanan həmin 50-ci maddəsinin III bəndində yazılıb: ”Hər kəsin KİV-də dərc edilən və onun hüquqlarını pozan və ya mənafeyinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.” Eləcə də Konstitusiyanın 46-cı maddəsi “Şərəf və ləyaqətin müdafiəsi hüququ” və 47-ci maddəsi “Fikir və söz azadlığı” adlanır. 46-cı maddənin məhz II bəndində Azərbaycan Respublikasının Dövlət siyasəti öz əksini belə tapıb: “Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətinləyaqətinin alçaldılmasına əsasverə bilməz.” [6].

Yəni, hər bir insan xəbər almaq haqqına sahib olduğu kimi, onun yalan-qərəzli-şantaj xarakterli xəbərlə hüququnun da pozulmasına yol verilmir. Məhz Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsinin II bəndinə əsasən, Dövlət siyasəti hər kəsin hüquqlarını qoruyur və istər internet, istərsə də digər İKT, KİV-də heç bir hüquq pozula bilməz. Düzdür, elə ölkələr var ki, *Google*-nin bir sıra xidmətlərinə - *Yahoo, Facebook, Twitter* kimi saytlar blok edilib, qadağa qoyulubdur. Düzdür, Virtual Məkanın hüquqi tənzimlənməsində özünə məxsus proqram “müstəntiqi”, proqram “vəkili”, proqram “prokuroru”, proqram “məhkəməsi” və s. kimi inzibati prosedurlar həyata keçirilə bilmir və yaxud bu çox çətin olur. Burada yeganə əsas mübarizə üsulu təkzib, üzr istəmək – yəni etik hüquqi davranış daha məqbuldur. Bu halda, hər dövlətin öz siyasəti, öz media təhlükəsizliyi də önəm daşıyır. Təsadüfi deyil ki, *Faceook* istifadəçiləri öz sayına görə məcazi mənada dünyanın ən böyük 4-cü ölkəsi hesab edilir.

Bu kontekstdə ortaya vacib bir sual da çıxır. İnternet hüququ dəyişib, yaxud hüquq interneti? Burada hər dövlətin təhlükəsizliyini ehtiva edən öz qanunvericiliyi var, o cümlədən Azərbaycan Republikasının da. Burada əsas məsələ hər fərdin, hər kəsin siyasi-hüquqi təməl hüquqlarının və etik-mənəvi hüququnun qorunmasıdır. Buna görə isə İKT-nin, proqram mühəndislərinin, yəni belə desək “yeni media”nın həm də inkişafına xələl gətirməyən, maneə törətməyən hüququ tənzimləməyə ehtiyac duyulur. Hər kəsin Kiber həyatda öz fikrini ifadə etməsi, digərinin mənəvi-etik hüquqlarına da hörmət etməsi zəminində olmalıdır. Bu isə həm də siyasi-hüquqi konteksdə də qorunmalıdır.

Etik-hüququ qaydaları biliriksə də, o qədər də “NETİKET” terminini də öyrənməliyik. Burada “N” hərfi texniki səhv deyil, internetdə etik-hüququ məsələləri tənzimləyən termindir. Yəni, NETİKET — “net” və “etiket”- iki sözün birləşməsidir. “Net” – şəbəkə, “etiket” – davranış məcmusu” kimi başa düşülür. “Netiket”in şərhi belədir: “Xəbər-bilgi göndərişləri, bloqlar, forumlar və sosial şəbəkələrdə qarşılıqlı əlaqə, ünsiyyət mədəniyyətini tənzim edən ictimai Razılıq toplusu”. Deməli, kiber məkanda olan sərbəstlik də qarşılıqlı hörmətə, bir-birinin hüququna riayətə söykənməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycanda bu sahədə mühüm işlər görülmüş, mühüm konseptual sənədlər, normativ aktlar qəbul edilmiş, “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf Konsepsiyasında bu məsələyə xüsusi yer ayrılmışdır.

Sosial şəbəkə, bloqlar, saytlarda bəzən başlanan hər hansı müzakirə özü də “virtual” yeni ictimai hərəkat, yaxud “siyasi aksiya” və ya elə “hüquq”dan uzaqlaşmaqdır. İstənilən yalan, qərəzli fikir tez-ani yayılıb, xaos, ajiotaj da yarada bilər. Mövcud etik və siyasi-hüquqi kodekslər Virtual dünyada hüququ tənzimləyə bilmirsə bu halda nə lazımdır? Öncə dəqiqlik, ikinci şəffaflıq, üçüncü qərəysizlik və dördüncü də ən əsası səhvin-xətanın-yanlışlığın Düzəldilməsi. İnternetin, onlayn xəbərin bu sahədə imkanları isə hüdudsuzdur.

DOI: 10.25045/NCSoftEng.2017.35

ƏDƏBİYYAT

[1] ict.edu.az/ xeberler/ item/ 235.
[2] Azərbaycan Respublikasının Konstitusiyası, B., 2009, s.18.
[3] https://az.m.wikipedia. orq\wiki\kompüter_mühəndisliyi
[4] https://az.m.wikipedia.orq\wiki\ proqram_təminatı
[5] R.M. Əliquliyev, R.Ş. Mahmudov “İnformasiya cəmiyyətində intellektual mülkiyyət hüquqlarının qorunması problemləri”, “İnformasiya cəmiyyətini problemləri” jurnalı, 2015, No 2, s.4-14
[6] Azərbaycan Respublikasının Konstitusiyası, B., 2009, s.17-18.

DOI: 10.25045/NCSoftEng.2017.35